Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Gülsün təzə ilimiz!

Yeni il bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı-2022

Tərtibçi: Nərmin Qədəmullazadə

Redaktor: Ruhiyyə Məhəmmədli

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

**Gülsün təzə ilimiz** : Yeni il bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait/ Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli adına Respublika Uşaq Kitabxanası; tərt.ed. N.Qədəmullazadə;ixt.red. R.Məmmədli. F.Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022.-34s

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022.**

# Giriş

Yeni il əsrlərdən bəri Azərbaycan xalqının da əziz bayramlarından biridir.Yeni ili həmişə ümidlə, səbirsizliklə gözləyirik.Yeni ili hər bir xalq mütləq öz ənənəsi ilə keçirir. Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr yeni il daha bərəkətli olacaq. İtaliyada bu bayramı beş gün keçirirlər. İndoneziyada yeni ili 10 gün keçirirlər.Yaponiyada isə yeni il ərəfəsi “qızıl həftə’’ adlanır, bir neçə gün davam edir. Belə fərziyyələr varki,Yeni il bayramı ilk dəfə 5 min il bundan əvvəl Mesopotomiyada qeyd edilib. Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Və məlum oldu ki, İsa peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu. Qədim Romalılar bütün gecəni rəqs edir və sifətlərində maska küçələrdə qaçırlarmış, patrislər isə həmin gün qulları azad edirlərmiş. Astrologiya ilə maraqlanan çox saylı insanları Yeni il ərəfəsində təzə ilin hansı heyvan üstə təhvil olacağı maraqlandırır. Bu bayramın əsas atributları Şaxta baba, Qar qız və Şam ağacıdır. Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya yolkanı burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib.

# Yeni il Azərbaycanda

Yeni il bayramı — dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olub. Şənliklər keçirilir, uşaqlar Şaxta baba ilə Qar Qızın yolunu gözləyirlər. Doğrudur,Yeni ilin gəlişini biz adətən Novruz bayramında qeyd edirik. Amma illərdir ki,Yeni ili də eyni məhəbbətlə qarşılayırıq. Süfrəmizdə ləziz yeməklərlə bərabər milli mətbəximizin gözəl təamları da qoyulur. Şəhərimizin küçələrində, mədəniyyət ocaqlarında Yeni ilin simvolu olan Şaxta baba və Qar qız yenə də öz missiyasını yerinə yetirəcək.

Yeni il ilə bağlı bir çox tədbirlər, konsertlər, tamaşalar insanın zövqünü oxşayır. Bu il Bakımız daha da gözəlləşib, paytaxtımız dünyanın əsrarəngiz şəhərlərindən birinə çevrilib. Şəhərimizin küçə və meydanlarında qurulmuş nəhəng yolkalar hər birimizə yeni duyğular bəxş edir. Yeni ilin sabahı yəni 1 yanvar qeyri iş günü hesab olunur. 2006-cı ildən başlayaraq, yanvarın 1 və 2-si bayram günləri hesab edilir və iş günü olmayan istirahət günləri kimi qeyd olunur.




## Kitabxanalarda Yeni il ilə bağlı təşkil olunan tədbirlər

Bildiyiniz kimi 2023-cü il dovşan ilidir. Dovşanlar çox şirin heyvanlardır. O zaman kiçikyaşlı dostlarımızla hazırladığımız “Dovşan və Tısbağanın” nağılından səhərcik təşkil edə bilərik.

*Aparıcı qonaqları salamlayaraq səhərcikdə iştirak edən kiçik dostlarımızı səhnəyə çağırır:*

**Aparıcı:**Bir dəfə bir dovşan tısbağanın qısa ayaqlarını və yavaş getməsini lağa qoydu və tısbağa dovşana gülərək cavab verdi:

**Tisbağa:**Çox sürətli bir dovşan ola bilərsən, amma səni qazana biləcəyimdən çox əminəm.

**Aparıcı:**Tısbağanın ona dediklərindən təəccüblənən dovşan, iki dəfə düşünmədən ona meydan oxudu, çünki qapalı gözlərlə tısbağanı qazanacağından çox əmin idi.

**Dovşan:**Tisbağanı qazanmağa nə varki?! Yataraqda onu udaram.

**Aparıcı:**Dovşan o qədər sürətlə qaçdı ki, tısbağanı çox geridə qoydu. Dönüb onu artıq görmədikdə, dovşan yarışdakı uğurunu qətiliklə gördü və bir az yatmağa qərar verdi.

**Tisbağa:**Ay səni dovşan! Sən yatmağında ol! İndi isə mən sənə qalib gələcəyimdən çox əminəm!

**Aparıcı:**Qısa müddətdən sonra dovşan hədəfə baxanda tısbağanı sona çox yaxın gördü və çıxılmaz bir cəhdlə bacardığı qədər sürətlə qaçmağa çalışarkən tısbağa qazandı.

Bu nağılın böyük bir tərbiyəvi əhəmiyyəti var, hədəflər yavaş-yavaş, zəhmətlə əldə olunur. İnsanları fiziki qüsurlarına görə lağa qoymamalıyıq.

Kiçik yaşlı oxucular arasında yeni il personajları ilə bağlı sual cavab və yaxud viktorina keçirmək daha marağlı olar. Qar qız səhnəyə dəvət olunur. Viktorinadan qabaq Qar qız Yeni il ilə bağlı kiçik yaşlı uşaqlara suallar verir:

**Sual-Cavab**

1)Yeni ilin atributları nələrdir?
Cavab: Şaxta Baba, Qar qız,Yolka

2)Yeni il mahnısını kim bilir? Cavab:

Dekabrın son günü
Bizə tutub üzünü
Dedi ürək sözünü

Bəzənmişdir yolkalar
Onlarında sözü var
Bilsin ellər-obalar

3)Bu il nə ilidir?
Cavab: Dovşan

4)Yeni ilin başladığı ay hansı aydır?
Cavab:Yanvar

5)Yeni il ilə bağlı olan filmləri sadalayın:
Cavab: "Sehrli yeni il", "Qar kraliçası", "Evdə təkbaşına", "Santa Klausun tətili" və s.

6) Şaxta Babanın vətəni haradır?
Cavab: Laplandiya

7) Qış fəslinin uzun olduğu ölkələrin adlarını sayın:
Cavab:Finlandiya, Qrellandiya, Rusiya, Antarktida

8)Qış yuxusana gedən heyvan hansıdır?
Cavab: Ayı

9)Uşaq və buz şeirinin müəllifi kimdir?
Cavab:Müəllif: Mirzə Ələkbər Sabir

10)Qışa aid olan aylar hansılardır?
Cavab:Dekabr, Yanvar, Fevral

## Viktorina "Milad sərgüzəştləri"

**Yarış 1.** Salam uşaqlar! Yeni il viktorinasında kim iştirak etmək istəyir? İndi biz 8 nəfərdən ibarət üç komandaya bölünəcəyik, bunun üçün çantadan bir nişan çıxarmaq lazımdır. Komandaya girməyən tamaşaçı olacaq. Hər komandanın öz cədvəli var. Sizin üçün bir oyunumuz var. İndi başlayacağam. Mən başlayacağam və siz bitirin.

Xəz papaqda dam, Başın üstündə ağ tüstü. Qarda həyət. Ağ evlər. Gecə bizə gəldi ... (qış).

Pəncərədən bayıra baxdıq Yaxşı, gözlərimə inana bilmirəm! Ətrafı ağ-ağ və süpürür ... (çovğun).

Pəncərədən kənarda qar dənəcikləri sürüsü O, həmçinin dəyirmi rəqsə rəhbərlik edir. Köhnə illə vidalaşaraq, Görüşürük ... (yeni il).

Onun çəhrayı burnu var O, saqqallıdır Bu kimdir? ... (Şaxta baba). Düzdür uşaqlar!

**Yarış 2.** "Milad ağacı" müsabiqəsi. Müsabiqə üçün sizə yapışqan, bir vərəq ağ kağız, yaşıl kağızdan kəsilmiş küknar ağacı lazımdır, Milad bəzəkləri. Milad ağacını və bəzək əşyalarını daha tez və dəqiq yapışdıran qalib gələcək. Sonda qalib gələn komandaya Şaxta baba hədiyyələr verir.

Viktorinadan sonra məktəbəqədər yaşlı oxucular arasında şeir müsabiqəsi təşkil edək. Ən gözəl intonasiya ilə şeir söyləyən oxucu müsabiqənin qalibi seçilir.

**Şaxta baba, qış baba şeiri**

***Müəllif: Mehdi Seyidzadə***

Keçdi dəniz, aşdı dağ
Gəldi bizə bir qonaq,
Saçları qardan dümağ,
Söylədik: alqış, baba,
Şaxta baba, qış baba!

Çöldə çıxıb qar dizə,
Yolka qonaqdır bizə.
Nəğmə deyib üz-üzə
Söylədik: alqış, baba,
Şaxta baba, qış baba!

Burda verib əl-ələ,
Oynayırıq bax belə
Səs yayılır hər elə:
Ay sənə alqış, baba,
Şaxta baba, qış baba!

## Şaxta baba xoş gəlib şeiri

***Müəllif: Əhməd Cəmil***

Qopdu bayırda tufan,
Uğuldadı yel, boran.
Döyüldü pəncərə bərk,
Açdı qapını külək.

Yelləndi çil-çiraqlar,
Doldu evə soyuq qar…
Aha-aha deyəsən,
Şaxta babadır gələn!

Saç-saqqalı tamam ağ,
Başında qardan papaq.
Girdi evə bir qoca
Boyu çinardan uca.

Yapıncısı buz kimi.
Parlayır ulduz kimi.
Qotazlı, qar xurcunu,
Uşaqlar görcək bunu

Alıb dövrəyə həmən,
Tutdular ətəyindən:

- Şaxta baba!…
- Şaxtacan!…
- Haradasan bu vaxtacan?

## Yolka bayramı şeiri

***Müəllif: Mirvarid Dilbazi***

Yolka bayramı
Yığılın gəlin
Uşaqlar hamı
Gəlin, şən keçsin
Yolka axşamı.
Tıq – tıq – tıq döyüb
Qapını birdən,
Qış baba baxır
Pəncərələrdən,
Ətəyi dolu
Əlvan kağızlar.
Onun içində
Gözəl şeylər var.
Pay
gətiribdir
Qış baba sizə,
Deyir ki, tez ol,
Yolkanı bəzə!..
Eşiyə yağır
Quşbaşıtək qar,
Qış baba gəlib
Sizə payı var.
Budur açıldı
Qapı taybatay.
Qış baba dedi:
Aman ay- ay – ay,
Kənara durun
Ay uşaqlar siz.
Yer – yemişiniz!
Qış baba evə
Bir nəzər saldı
Uşaqlar tezcə

Dövrəsin aldı.
Yolka yanında
Çökdü qış baba.
Yaşıl budaqlar
Bir – bir bəzəndi.
Xırda uşaqlar
Hamısı şəndi.
Əzilib gedər

## Qış

***Müəllif: Məmməd Rahim***

Taxılı örtməsə qar
Bir qalın yorğan kimi,
Sünbüllər ümman kimi
Zəmidə dalğalanmaz.

Qış bizə nemət verir,
Dad verir, ləzzət verir.
Qar düşməsə çöllərə,
Qovuşmarıq güllərə.

Sevimli bahar olmaz,
Bağçalarda bar olmaz.
Qış bizə nemət verir,
Dad verir, ləzzət verir.

**Şaxta Baba**
***Müəllif: Xanımana Əlibəyli***

Şaxta baba, şaxta baba
Saçların ağ, saqqalın ağ,
Hansı evə getsən qonaq,
Hörmət edər hər bir uşaq
Şaxta baba, şaxta baba.

## Nağıl otağında yeni il ilə bağlı tap-tapmaca oyunu

Kitabxananın nağıl otağında kitabxanaçı uşaqlarla tap-tapmaca oyunu keçirir. Oyun zamanı kiçik vərəqlərə yazılmış tapmacalar uşaqlara paylanır. Hərkəs növbə ilə kağızdakı tapmacaları səsləndirib, düzgün cavabları deyirlər.

1) Qəndə oxşar dadı yox, Göydə gəzər qanadı yox.**(Qar)**

2) Ağac başında ağca yumaq. **(Qar)**

3) Bayırda sağdı, Pambıqdan ağdı, Evə gələr, Suya dönər.**(Qar)**

4) Bir ağ daşım var, odda yanmaz, Suda batmaz, gün çıxanda əriyər.**(Buz)**

5) Dağdan gəlir dağ kimi, Qolları budaq kimi, Oturur həsir kimi, Duranda yesir kimi.**(Qar)**

6) Dam üstə daylaq oynar, Yerə dəyib oyular. **(Dolu)**

7) Əlamət, ay əlamət, İşi tamam qiyamət, Əli yox, şəkil çəkir, Dişi yoxdu, dişləyir.**(Şaxta)**

8) Əmim oğlu ustadı, Əli kəmər üstədi. Suda körpü salıbdı, Gəlgör necə ustadı. **(Buz)**

9) Göydən yerə buz yağır, Görün necə düz yağır. Darı boyda,qozboyda, Görmədim qarpız boyda. **(Dolu)**

10) Həyətdə dağ, Pambıqdan ağ, Evə gələr, Suya dönər.

**(Buz, qar)**

11) Kolları gəzər pusa-pusa, Qıçları uzun, qolu qısa.
**(Dovşan)**



## Yeni il ilə bağlı sitatlar

Kitab Fürsət adlanır və onun birinci fəsli Yeni il günüdür".

**Edit Lovejoy Pirs**

Bu yeni ildir. Yeni bir başlanğıc. Və işlər dəyişəcək.

**Taylor Swift**

Yeni ilin məqsədi yeni il keçirməyimiz deyil. Yəni yeni bir ruhumuz olmalıdır.

**GK Chesterton**

Yeni günlə yeni güc və yeni düşüncələr gəlir.

**Eleanor Roosevelt**

Yeni il hədəflərinizi təyin etmək üçün bir zamandır.

**Samuel Fixon**

Yeni il yeni nailiyyətlər üçün yeni lütf gətirir.

**Lailah Gifty Akita**

Yeni il yalnız xoşbəxtlik gətirmir, arzularımızı yerinə yetirmək və ya həyatımızın yeni bir başlanğıcı ilə bizi sevindirir.

**Santonu Kumar Dhar**

Yeni il qarşımızda bir kitabdakı bir fəsil kimi yazılmasını gözləyir. Həmin hekayəni yazmağa kömək edə bilərik.

**Melody Beattie**

Yeni il bir ilin bitməsini və digər ilin başlanğıcını simvollaşdırır. Amma bu bir anlıqdır.

**Ketrin Pulsifer**

## Yeni il ilə bağlı kitabların təhlili




***Dovşan nə üçün yeni il şənliyinə qatılmadı?***

*Yazar: Amin Sükut*

Meşəyə Yeni il gəlib, bütün heyvanlar bayram ab-havasına bürünüb. Sevincləri aşıb-daşır, bir-birilərinə hədiyyələr hazırlayır, “Mötəbər Eşşək” tamaşasını dörd gözlə gözləyirlər. Amma Dovşan… Dikbaş, inadkar, küskün, heç kəslə deyib-gülməyən, ancaq ürəyinin dərinliyində gizli bir saflıq olan Dovşan şənliyə qatılmaq istəmir. Dovşanın dostu Ayıdan da bir xəbər yoxdur. Hamı nigarandır. Görəsən, onu Yeni il şənliyinə kim çağıracaq? Əlbəttə ki, Dovşan! O, qar-borana baxmır, “Dost dar gündə tanınar” deyib yola düşür. Bu, yeni bir qış nağılının başlanğıcıdır. Bu nağıl “Ayı nə üçün qış yuxusuna getmədi?”, “Arılar nə üçün Eşşəyi çaldı?”, “Tülkü nə üçün bütün gecəni yatmadı?”, “Mastı və Fil”, “Qorxulu meşəyə kim getdi?”, “Dovşanın gündəliyini kim götürdü?”, “Ayı meşədən küsüb, yox meşənin xəbəri” kimi əhvalatlardan ibarətdir. Bildirmək

isdəyirəmki, qarşıdan gələn ilimizin dovşan ili olduğu üçün bu kitab insanda oxumağa maraq doğurur. Kitabı oxuduqca insan beynində personajlar canlanır,yeni il ab-havası hiss olunur.

## Rəsm müsabiqəsi

Kitabxanada "Yeni il uşaqların gözü ilə" rəsm müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Rəsm müsabiqəsində Yeni ilin əsas personajları olan Şaxta baba, Qar qız, Yolka şəkilləri çəkilə bilər. Müsabiqədə uşaqların qışı, yeni ili və digər əsas obrazları beyinlərində necə təsvir etdiklərini bu müsabiqədə görəcəyik.







# Mahnı müsabiqəsi

Məktəblilər arasında Yeni ilin gəlişi ilə bağlı mahnı müsabiqəsinə start verilir. Bununla bağlı 1 həftə öncə kitabxananın rəsmi saytında elan yerləşdirilir. İştirak etmək istəyən məktəblilər qeydiyyatdan keçir. İndi isə iştirakçıları səhnəyə dəvət edək. Müsabiqə zamanı bu mahnılardan istifadə etmək olar:

1)**Yeni il gəldi**

Sözləri: Hikmət Ziya
Musiqisi: Musa Mirzəyev

Süd kimi ağ qar ilə
Çoxlu çoxlu bar ilə
Qış ilə, bahar ilə

[Nəqərat]
Yeni il gəldi, yeni il gəldi
Neçə nübar ilə yeni il gəldi

https://www.google.com/search?q=sud+kimi+ag+qar+ile&b

2)**Yolka**

Musiqi: Oqtay Zülfüqarov
Sözləri: Yusif Həsənbəyov

Geydi ağ köynəyini
Yenə el,oba.
Xoş gəldin Şaxta baba,
Mehriban baba.
Yandırdın yolkamızda
İşıqları sən,

Sevindirdin güləruz
Uşaqları sən.
 Yolka, yolka,
 Şən, mehriban yolka!
Əziz yolka, Can yolka.
Əziz çağların var,
Oyuncaqların var.
Dövrəndə nə çoxlu
Uşaqların var.
https://www.youtube.com/watch?v=M0-jB43LvfU

3)**Şaxta baba,Qış baba**

Müəllif: Mehdi Seyidzadə

Keçdi dəniz, aşdı dağ
Gəldi bizə bir qonaq,
 Saçları qardan dümağ,
Söylədik: alqış, baba,
 Şaxta baba, qış baba!
Çöldə çıxıb qar dizə,
Yolka qonaqdır bizə.
 Nəğmə deyib üz-üzə
Söylədik: alqış, baba,
 Şaxta baba, qış baba!

https://www.youtube.com/watch?v=LhtXmqLiPlw

# Yeni il şənliyi

Kitabxanada oxucular tərəfindən sevilən tədbirlərdən biridə yeni il şənliyidir.Tədbirin olduğu zal yeni il ab-havasına uyğun olaraq bəzədilir. Həzin yeni il mahnısı sədaları altında tədbir başlayır.Yeni il ilə bağlı hazırlanmış slayd təqdim olunur. Slayd bitdikdən sonra aparıcılar səhnəyə daxil olurlar.

Qış fəslinə aid məlumatlar - Uşaq Bilik Portalı (azertag.az)

**Aparıcı :** Salam əziz uşaqlar və hörmətli müəllimlər, xoş gördük sevimli, qayğıkeş, gülərüz dostlar. Yeni il yeni arzular, yeni əməllər, yeni-yeni uğurlar deməkdir. Yola salmağa hazırlaşdığımız 2022-ci ilin son günləridir. İcazə verin şənliyimizi yeni il mahnısı ilə başladaq.
Məktəblilər "Yeni il Gəldi" mahnısını xorla oxuyurlar. Uşaqlar gəlin Şaxta babanı səsləyək.

*(Xor oxuyur.Şaxta baba, şaxtacan, hardasan bu vaxtacan? 2 dəfə) Qar qız və Şaxta baba görünür.*

**Şaxta baba:** Salam uşaqlar ! Mənim nəvələrim, nəticələrim ! Axır ki, qarlı dağları aşıb, çoxlu elləri dolaşıb, sizin görüşünüzə gəldim. Qar qız balamla sizlərə çoxlu-çoxlu hədiyyələr gətirmişəm.

**Qar qız:** Dostlar biz sizi görmək üçün çox uzun yol qət etmişik. Sizlərə çoxlu sovqat gətirmişik.

**Şaxta baba:** Tələsmə Qar qız, görürəmki, uşaqlarda bizə hədiyyələr hazırlayıb. Qoy əvvəl onlar təqdim etsinlər, sonra biz.

*İndi isə səhnəyə şeir söyləmək üçün kiçik qar dənələri gəldi!*

**Qar dənəsi 1**
Hər tərəfə yağıb qar,
Tez gəlin siz, uşaqlar.
Ağ geyinib meşə,dağ,
Qar topası oynayaq.

**Qar dənəsi 2**
Gizlənibdir turaclar,
Buz bağlayıb yamaclar.
Donub güllər,çiçəklər,
Əsir soyuq küləklər.

**Qar dənəsi 3**
Qış gəlibdir, qış gəlib,
Bu yerlərə xoş gəlib.
Neyləyəcək qar bizə,
Dost olub bahar bizə.

*Şam ağacı səhnəyə gəlir və qar dənəcikləri haqqında tamaşaçılara məlumat verir.*

**Şam ağacı:** Şaxtalı qarlı havalarda biz qapı pəncərəni bərk bağlayıb evdə gizlənəndə göydən yerə saysız hesabsız məktublar yağırmış.Əslində qar dənəciyinin hərəsi bir işarə, hərfdir. Ən maraqlısı isə qar dənəcikləridir. Sən demə, indiyə qədər yağan milyardlarla qar dənələri, heç biri o birisinə bənzəmir. Qar - çox kiçik buz kristallarından ibarət atmosfer yağıntısıdır. O buludda temperatur 0 °C-dən aşağı olduqda yaranır, yerə enməsi 4 °C tempraturdan aşağı olduqda baş verir.

**Aparıcı:** Gəlin o parlaq əhval üçün qar dənələrinə təşəkkür edək. İndi isə yolkamızın işıqlarını yandırmaq üçün Dovşanı səhnəmizə dəvət edək.
**Dovşan:**Salam Uşaqlar! Necəsiz? Görürəmki yolkanızın işıqları yanmır. Gəlin birlikdə Yolkamızı işıqlandıraq!

*Yolkanın işıqları yanır. Uşaqlar sevinərək yolka ətrafında rəqs edirlər.*

## İnşa müsabiqəsi

Böyüməkdə olan gənc nəslin inşa yazı sahəsində öz yaradıcılıqlarını nümayiş etdirə bilmələri üçün məktəbyaşlı uşaqlar arasında inşa müsabiqəsi keçirilə bilər. Müsabiqədə uşaqların yeni ili necə sözlərlə canlandırdıqlarını, qış fəsli haqqında fikirlərini öyrənə bilərik. Müsabiqə keçirilməzdən əvvəl onun məqsədi və şərtləri, istifadəçilərin yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Belə bir müsabiqənin kitabxanada təşkil ediləcəyi haqqında məlumat verilir, şərtlərlə tanış olunur. Müsabiqə təşkil olunarkən yaxşı olardı ki, ərazidə fəaliyyət göstərən məktəblər, müxtəlif yaradıcılıq dərnəkləri ilə əməkdaşlıq edilsin. Tədbir öncəsi iştirakla bağlı müvafiq şəbəkələrdə elan yerləşdirilməlidir. İlk olaraq kitabxanaçı səhnəyə gələrək münsiflər və qonaqları salamlayır, iştirakçılara isə uğurlar arzulayır. Tədbir zamanı münsiflər və qonaqlar uşaqların təklif etdiyi inşalardan ən yaxşı, uyğun yazılanları seçirlər. Sonda münsiflər tərəfindən seçilmiş qalib mükafatlandırılır.

**Nümunə:**

**Müsabiqənin şərtləri:**

1. Müsabiqəyə təqdim olunan inşaların əsas mövzusu Yeni il ilə bağlı olmalıdır;

2. İnşalar Microsoft Word mətn redaktorunda A4 formatında, Times New Roman şrifti ilə 12 pt. ölçüdə hazırlanmalıdır.

3. Müsabiqədə iştirak etmək üçün yanvar ayının 1-dən gec olmayaraq kitabxananın saytından qeydiyyatdan keçmək lazımdır.

4. Münsiflər tərəfindən bəyənilən inşalar mədəniyyət qazetində, kitabxanın saytında və sosial şəbəkələrdə paylaşılacaq.

İndi isə şagirdlərin yazdığı inşalardan birini nümunə kimi təqdim edək:

**Qış Fəslinin Gözəllikləri**

Hər fəslin öz gözəlliyi olsa da, qış fəsli bir ayrı gözəldir. Yəqin ki, onu gözəlləşdirən və fərqləndirən ən əsas özəlliyi də "sahib olduğu" qar yağışıdır. İlin yalnız bu fəslində qara rast gəlmək olur və kiçikdən böyüyə hər kəsin qarla olan əyləncə dövrü başlanır. Qışı sevdirən digər bir cəhət də, bu fəsildə ən çox sevilən bayramlardan biri olan Yeni ilin keçirilməsidir. 31 dekabr hər ilin sonuncu günüdür, sonrakı gün artıq yeni təqvim ilinin başlanğıcıdır. Hər insan yeni ilə yeni ümidlərlə, arzularla girir.

Düzdür, bizim ölkəmizdə iqlim o qədər də soyuq deyil, bəzi regionlarımız istisna təşkil edir, sözsüz ki. Xüsusilə də, qış fəslində Aran rayonlarına qarın yağması əsl möcüzə hesab olunur. Qış gözəl fəsildir, hər tərəfin ağ rəngə bürünməsi, təbiətin müvəqqəti "ölməsi", daha sonra yazda yenidən "dirilməsi"nə şahidlik etməkdən daha gözəl heç nə ola bilməz...

## Qış Nağılı

Müəllif: Gülzar İbrahimova



Kitabxananın nağıl otağında kitabxanaçı Qış Nağılını uşaqlara danışır:

Uzaq şimalda bir buz ev var idi. Evin qapı və pəncərəsi, soba və bacası, hətta çilçırağı da buzdan idi. Burada Şaxta baba yaşayırdı. Quşlar, heyvanlar Şaxta babanın evinə yığışmışdı. Baba buzdan olan masanın arxasında əyləşib uşaqların göndərdiyi məktubları oxuyurdu. Qar qız da yanında idi.

Uşaqlar Şaxta babadan çoxlu hədiyyələr gözləyirdilər. Bayrama isə lap az qalırdı. Ona görə də baba dostlarını - Panda, Ayı, Eynəkli dovşan, Dələ, Maral, İt, Pişik, hətta Siçanı da köməyə çağırmışdı. Hamı həvəslə işləyirdi. Məktubları açıb Şaxta babaya verən kim, hədiyyələri bağlayan kim, hərə bir iş görürdü. Rəngbərəng – qırmızı, qızılı, sarı, göy lentlər buz stoldan sürüşüb yerə düşür. Hərə bir tərəfdən deyirdi:

- Qayçı kimdədir?
- Yapışqan gətirin, qurtardı!
- Kağız tikən hanı?
- Hazır hədiyyələri daşıyın!

İş çox olsa da, bu, hamıya xoş idi. Görün, nə qədər uşaq hədiyyələri alıb sevinəcək. Şaxta baba məktublardan birini oxuyanda başını buladı:

- Nə olub, Şaxta baba? – deyə Qar qız soruşdu:
- Qıza bax, yalandan yazır əlaçıyam, amma məktubda «dərslər» əvəzinə «dəslər» yazıb.

Başqa bir məktubu oxuyanda isə lap hirsləndi:

- Hələ bu məktuba qulaq asın! «Şaxta baba, mənə kompüter, iki kompüter oyunu… Oğlan on beş əşya adı yazıb. Onları sadalamıram, axırda da yazıb ki, kiçik qardaşıma mənimkilərdən yaxşı hədiyyə gətirmə! Paxıllığa bir bax. Kiçik qardaşı isə təkcə bir maşın istəyib. Məktubun əvvəlində və sonunda xahiş edib və «zəhmət olmasa» yazıb.
- 3 ildir bu uşaq bizə məktub yazır, bir dəfə də olsun «sağ ol», ya da «zəhmət olmasa» sözü olmayıb, - deyə Dovşan təəccübləndi.
- Kobud və paxıldır, kiçik qardaşına paxıllıq edir, - deyə Dələ fikrini bildirdi:

Hədiyyələr hazır olan kimi Şaxta baba və Qar qız yola düşdülər. Əvvəl üç ağ atlı kirşə meşə ilə getdi, sonra havaya

qalxıb uşaqları sevindirməyə tələsdi.

Elxan və Ayxangildə hamı yatsa da, yolkanın lampaları evi işıqlı edirdi. Şaxta baba bəzənmiş yolkaya baxdı. Sonra hədiyyələri yolkanın altına qoyub getdi.

Səhər Elxanla Ayxan yolkanın altında istədikləri hədiyyələri görüb sevindilər. Elxan qardaşına acıq verdi:

- Bax, Şaxta baba mənə nə istəmişəm gətirib!

Ayxan sevindi:

- Nə yaxşı, sən elə kompüter istəyirdin! Mənə isə maşın gətirib!

Maşın balaca olsa da çox maraqlıydı. O həm pultla, həm də açarla işləyirdi.

Maşının bütün qapıları açılır, içərisinə yük qoymaq olurdu. Siqnal verir. Lap böyük maşınlardakı kimi. Elxan maşını görüb pərt oldu. Peşman oldu ki, nəyə görə Şaxta babadan maşın istəməyib? Qaşqabağını tökdü və maşına təpik vurub dedi:

- Mən də belə maşın istəyirəm!

- Paxıl olmaq yaxşı deyil! – deyə ana Elxanı danladı.

Ayxan isə qardaşının könlünü almaq istədi:

- Bir az oynayım, verərəm, sən də sürərsən.

Elxan sakitləşmədi. Küsdü. Sonra sakitcə geyinib evdən çıxdı.

Üz tutdu meşəyə. O, Şaxta babadan soruşmaq istəyirdi ki, niyə qardaşıma mənimkindən yaxşı hədiyyə vermisən? Meşəyə çatıb Şaxta babanı çağırmağa başladı:

- Şaxta baba, Şaxta baba!

Onun səsi meşədə əks-səda verdi:

- Deməmişdim, qardaşımın hədiyyəsi mənimkindən yaxşı olmasın?

Elxan uzaqdan Şaxta baba və Qar qızı gördü. Yaxınlaşanda isə qorxdu:

- Siz kimsiniz?
- Mən Şaxta babayam!
- Axı sən Şaxta babaya yox, Divə oxşayırsan?!
- Karnavaldaydıq, mən Div, Qar qız da Küpəgirən qarı maskası taxıb!
- Az qala qorxmuşdum, - Elxan dedi.
- Eşitdik hədiyyədən narazısan, gəl gedək, nə istəsən verək sənə!
- Gedək!

«Şaxta baba» əyilib pıçıltı ilə «Qar qız»a dedi:

- «Acgöz uşaqların əti çox dadlı olur».

Elxan bu sözləri eşidib qorxuya düşdü. «Qar qız» dedi:

- Burda gözlə, gəlirik. Onlar bir kolun arasına girdilər. Koldan qara qarğa uçub uzaqlaşdı. Elxanın gözləri doldu, istədi ağlasın. Bu vaxt əsl Şaxta babanın katibi Eynəkli dovşan gəlib çıxdı:

- Bayram günündə tək-tənha meşədə neyləyirsən?

Elxan başına gələnləri Dovşana danışdı. O, başını buladı:

- Onlar Divlə Küpəgirən qarıdır. Yaxşı ki, səni aldadıb aparmayıblar. İndi gəl gedək Şaxta babanın yanına.

Onlar Şaxta babanın yanına gəldilər. Şaxta baba Elxanı tanıdı. Nədən narazı olduğunu bilmək üçün onun və qardaşının göndərdiyi məktubu bərkdən oxudu. Məktubun sonunda Ayxan yazmışdı:

- Zəhmət olmasa, qardaşıma mənimkindən də yaxşı hədiyyə gətirin!

Elxan səhvini başa düşüb xəcalət çəkdi. Buz güzgüdə özünə baxıb utandı:

- Şaxta baba, gələn il qardaşıma yaxşı hədiyyə gətirərsən!

- dedi.
Şaxta baba oğlanın başını sığalladı:

- Bu, başqa məsələ! Mehribanlıq hər şeydən vacibdir!
Sonra Şaxta baba Elxanı öz kirşəsində evlərinə apardı. Qaranlıq düşmuşdü. Ata oğlunu həyətdə görəndə tez onu paltosuna bürüyüb evə apardı. Ata o qədər yorulmuşdu ki, oğlunu danlamağa halı yox idi. Ana oğlunu görən kimi onu bağrına basıb öpdü:
- Mənim balam, hardaydın, nigaranlıqdan az qala ölmüşdük!
- Mən meşədə əsl Şaxta baba, bir də Div ilə Küpəgirən qarını gördüm!
Əlbəttə, ata-ana Elxana inanmayıb onu yatmağa göndərdilər.
Ayxan qardaşını görüb qucaqladı. Həmişə Ayxan onu qucaqlayanda Elxan onu itələyir, yaxınlaşmağa qoymurdu. Bu dəfə isə özü qardaşını bağrına basdı. Sonra Ayxana başına gələn əhvalatı danışdı. Divdən və Küpəgirən qarıdan, onu yemək istədiklərindən danışanda Ayxan dözə bilməyib ağladı:
- Səni yesəydilər, mən necə sənsiz qalardım!
Elxan qardaşını əzizlədi:
- Ayxan, mən də səni çox istəyirəm, oyuncaqlarımdan hansını istəsən götürürə bilərsən.
- Doğrudan? - deyə Ayxan sevindi.
- Əlbəttə!
Elxan ilk dəfə idi ki, fikirləşirdi: «Nə yaxşı, mənim qardaşım, atam, anam var. Onlar məni, mən də onları çox istəyirəm!».

İzinhttps://yenicag.az/10-en-yaxsi-yeni-il-filmi-siyahi/

https://www.youtube.com/watch?v=43SjAx6CXqc

# Film Həftəsi

Yeni ilin gəlişini daha rəngarəng etmək, uşaqları sevindirmək üçün kitabxanaların oxu zalında yeni ildən bəhs edən filmlərin nümayişinin keçirilməsi məqsədə uyğun olar. Uşaqlar ekran qarşısında yerlərini aldıqdan sonra metodistin onlar üçün seçdiyi qış fəslindən, yeni ildən bəhs edən filmlərə tamaşa edirlər. Filmlərin bir neçəsi ilə sizi tanış etmək istəyirik.

## Cizgi Filmləri

"Şaxta Babanın nağılı", "Yeni İl Sirri" (Azərbaycan Cizgi Film / Uşaq Nağılları ), "Şaxta babaya məktub", "Qış nağılı" "Uşaq və buz" qısametrajlı animasiya filmi, "Qarqızın nağılı" "Maşa ilə Ayı", "Yeni il nağılları", Noel Babaya Yardım və s.

https://www.youtube.com/results?search_query=yeni+il+cizgi+filmi

## Kinofilmlər




**"Qütb ekspresi"** (The Polar Express) filmi. Uşaqların sevərək izlədiyi bu animasiya filmində balaca oğlanın qatarda səyahət edən zaman başına gələnlərdən bəhs edilir. Bu film Şaxta babaya inanmayanlar üçün çəkilib desək, yanılmarıq. Filmi izlədikdən sonra fikirləriniz dəyişəcək. Balaca oğlan Şaxta babanın varlığına inanmır. Bu oğlan yeni il ərəfəsində qəribə bir qatara minir və qütbə doğru yola düşür. Yol boyunca qatarda bir çox möcüzəli hadisələr

yaşanır. Bununla da balacanın Şaxta babaya olan inamı yavaş-yavaş geri qayıdır. Əslində, oğlan qatarın onu Cənub qütbünə apardığını bilmir. Filmi izləyərkən istər-istəməz hadisələrin təsirinə düşürsən. Oğlanın oradan necə qayıtdığını, başqa hansı hadisələrin şahidi olduğunu isə film izləyərkən biləcəksiniz.



Yeni il əhval-ruhiyyəli filmlərdən danışıb, **"Evdə təkbaşına"** (Home alone) filminin adını çəkməsək, olmaz. Eyni ad altında 4 film çəkilib.

"Evdə təkbaşına 1, 2, 3, 4," adı ilə məşhurlaşan bu kinolar uşaqlarla birlikdə böyüklərin də ürəyinə yol tapıb. Böyük həvəslə ailəvi şəkildə izlənilən bu filmlər içərisində "Evdə təkbaşına 1 və 2"-də yer alan Kevin daha çox sevilir. Evə girib soyğunçuluqla məşğul olan oğrulara qarşı öz üsulları ilə mübarizə aparan Kevini izləməkdən yorulmayanlar, illərdir ki, hər Yeni il ərəfəsində bu filmin kanallarda nümayişini böyük həvəslə gözləyir. **“ Milad Gecesi Kabusu”** Halloveen şəhərinin Balqabaq Kralı olmaqdan yorulan Jack Skellington həyəcan verici bir şeyin axtarışına çıxar.




Bu axtarışla özünü Christmas şəhərində tapar və bütün dünya üzərində milad gecəsi uşaqlara oyuncaq paylama vəzifəsini Santa Klausdan almaq qərarı verər. Tim Burtonun nağıla bənzər izahatıyla Milad Gecesi Kabusu hər yeni ildə olduğu kimi bu yeni ildə də xəlallarınızda yeni qapılar açacaq…

Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Yeni il Yer kürəsinin bütün guşələrində dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Yeni ili bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir.

İnsanlar, millətlər, fikirlər nə qədər müxtəlifdirsə insanların ümidləri, gözləntiləri də bir o qədər müxtəlifdir. Bayramı bəzəyən ümumilikdə insanın həyatını bəzəyən ümidlər, arzular, istəklərdir ki, insanlar onları müxtəlif formada təzahür edirlər. İnsanlar Şam Ağacından arzularının çin olmasını yox, bir növ bunu etməklə bu arzularının çin olacağına əmin olurlar və özlərində güvən, həyat eşqi yaradırlar ki, bundan da gözəl heç bir şey yoxdur. Əgər insanların, ümidləri, gözəl arzuları varsa deməli dünyamızda sevgi də var, dəyərdə var və Həyatda var! Bayramlar insanları birləşdirir onlara paylaşmağı, sevməyi və ümid etməyi öyrədir ki, bəlkə də dünyamızın indiyədək qalmasına səbəbi məhz həmin bayramladır və insanlarda olan bayram əhval-ruhiyyəsidir.

**Mətbuatda**

2022 "Yeni il möcüzəsi" // Azərbaycan müəllimi . - 2021. - 30 dekabr. - S.16.

Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki // Azərbaycan. - 2006. - 6 yanvar. - S.6.

Balacaların Yeni il sevinci // Mədəniyyət . - 2016. - 6 yanvar. - S. 4.

**Bayramov R.** Beş min il yaşı olan bayram : Dünya Yeni ili necə qarşılayır. Dünya xalqlarının Yeni il adətləri // Azərbaycan. - 2009. - 1 yanvar. - S. 4.

**Bədəlov N.** Möcüzəylə gələn qonaq : yeni ildə bayram yolkası haqqında // El. - 2008. - dekabr. - S. 64 - 71.

**Əmrullayeva M.** Müasir bayramlarda milli-mənəvi dəyərlərin təzahürü / M. Əmrullayeva // Yeni Mədəni-maarif jurnalı. - 2008. - № 3. - S. 58-63. ; № 4 . - S.65-69.

Heydər Əliyev Fondu "Gülüstan" sarayında uşaqlar üçün bayram şənliyi təşkil etmişdir // Xalq qəzeti. - 2008. - 30 dekabr. - S. 3.

“Kosmik Yeni il // Mədəniyyət . -2015. - 7 yanvar. - S. 7.

**Muradlı X.** Dünyada Yeni il: fərqli və ortaq adətlər // Azərbaycan. - 2019. - 31 dekabr. - № 293. - S. 10

Muzeydə “Yeni il hədiyyəsi” // Mədəniyyət . - 2016. - 30 dekabr. - S. 3.

Üzbəüz dayandığımız il : Atdı - muraddı // Azərbaycan. - 2013. - 31 dekabr. - № 291. - S. 15.

Yeni il proqramları başlandı // Mədəniyyət . - 2015. - 25 dekabr. - S. 6.

**Kitablarda**

**Həsənzadə F.** Ağ kəpənəkli çətir. - Bakı: Təhsil, 2022. - 32 s.

Xoş gəlmisən Yeni il! // Şeir bağı. - Bakı: Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2001. – S. 5.

**İbrahimova G.** Yeni ilin mübarək! // Göydə neçə ulduz var : Şeir-tapmacalar. - Bakı: Oskar, 2006. – S.33.

**Sahibli Ş.** Yeni il // Biçilmiş çiçəklər : Şeirlər və poemalar. - Bakı: Adiloğlu, 2004. – S.50.

**Vestli A.** Yeni il // Ata, ana, nənə, səkkiz uşaq və yük maşını. - Bakı : Qanun, 2017. – S. 125.

Yeni il hədiyyəsi // 365 şirin yuxu. - Bakı: Qələm, 2012. – S. 2.

# Gülsün təzə ilimiz!

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərmin Qədəmullazadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: [www.clb.az](http://www.clb.az)**